# Maarifçilik toxumu səpən "Əkinçi"nin tarixi missiyası

*Mətbuat ictimai şüurun mayakıdır. Cəmiyyətin inkişafında mətbuatın rolu əvəzsizdir. Mətbuat olmadan xalqın səsini, dəyərlərini, mübarizəsini, arzularını anlamaq mümkün deyil. Bu səbəbdən Azərbaycan milli mətbuatının 150 illiyinin qeyd olunması dövlətimizin söz azadlığına, maarifçilik ənənələrinə verdiyi yüksək dəyərin bariz nümunəsidir. Prezident İlham Əliyevin 2025-ci il 25 aprel tarixli Sərəncamı ilə təsis edilən xüsusi yubiley medalı mətbuatımızın milli dövlətçilik tarixində oynadığı rolu bir daha vurğulayır, media sahəsində fəaliyyət göstərənlərə dövlət qayğısını nümayiş etdirir.*



Milli mətbuatımızın yaranması xalqın siyasi və sosial özünüifadəsinin əsasını qoyub. Tarixin müxtəlif dövrlərində Azərbaycanda söz azadlığına qoyulan məhdudiyyətlər, senzura mexanizmləri, hətta təqiblər də mətbuatın xalq üçün nə qədər həyati əhəmiyyət daşıdığını daha da aydınlaşdırır. Belə bir mühitdə ilk milli qəzetimizin - Həsən bəy Zərdabinin "Əkinçi"sinin təsis olunması, cəsarətlə milli dəyərləri, elmi və ictimai yenilikləri təşviq etməsi, demokratik düşüncənin təməlini qoyması böyük tarixi hadisədir. 1865-ci ildə qəbul olunan "Senzura haqqında qəti qanun"dan sonra o dövrdə mətbu orqanların qeydə alınması çox çətin proses idi. Bu məqamda Həsən bəy Zərdabi 1873-cü ilin aprel ayında Bakı Qubernatoru D.M.Staroselskiyə rəsmi məktub ünvanlayaraq qəzetin nəşrinə icazə istəyib. Staroselski isə senzorluğu öz üzərinə götürməklə yanaşı, qəzetin adını "Əkinçi" qoymağı məsləhət görüb. Bu ad seçimində simvolik məna, həm də məqsəd xalqın maariflənməsinə xidmət məsələsi aydın görünür.

Böyük pedaqoq və ictimai-siyasi xadim Həsən bəy Zərdabi qəzetinə "Əkinçi" adını verərkən nəzərə alırdı ki, bu ad milli şüurun inkişafı üçün zəmin yaratmaq, yeni bilik və ideyaların toxumlarını səpmək missiyasını yerinə yetirməlidir. Yəni qəzet milli düşüncəni, ictimai şüuru oyatmaq istəyirdi. "Əkinçi" həm də siyasi maarifləndirmə və azadlıq yolunda çalışmalı, dövlətçilik ideyalarının toxumlarını səpməli idi. Beləliklə, "Əkinçi" sadə xalq dilində danışan, ağır sözlərlə deyil, aydın dildə yazan, dərin fikir toxumları səpən qəzet idi.

XIX əsrdə gərgin dil mübahisələri və fikir ayrılıqları əslində mətbuatın yalnız hansı sözün necə yazılması və ya hansı əlifbanın üstünlüyü ətrafında deyil, daha çox hansı dildə düşünməli, hansı dildə milli ideyanı ifadə etməli olduğumuz sualı ətrafında cərəyan edirdi. Bu mənada, o dövrün dil polemikasının siyasi mahiyyəti vardı. İndi də jurnalistikamız qloballaşmanın təsiri ilə Avropa dillərindən alınma sözlərin təzyiqi altındadır. Yeni texnologiyalar, media platformaları və siyasi qloballaşma prosesi ilə birlikdə publisistik dilə sirayət edən ifadələr dilimizin ahəng qanunlarına, morfoloji quruluşuna və fonetik sisteminə uyğun gəlmədiyi hallarda ciddi dil deformasiyası yaradır. Məhz bu səbəbdən, alınma sözlərin saf-çürük edilməsi, onların publisistik yazılarda tərcüməsiz deyil, dilimizin strukturuna uyğunlaşdırılmış formada istifadəsi milli ideoloji məsuliyyətdir. Və bu məsuliyyətin ən möhkəm dayaqlarından biri, şübhəsiz ki, "Əkinçi"dən başlanan mətbuat tarixidir. Təsadüfi deyil ki, qəzet ərəb-fars tərkibləri ilə qəlizləşdirilmiş bir dildə yazmaq yolunu tutmadı, mümkün qədər dilin anlaşıqlı olmasına çalışıb. Xalqı maarifləndirmək uğrunda bir çox işlər görüb, öz dilini və mədəniyyətini qorumağı üstün bildi. Əsasən də, molla məktəblərində fars dilinə qarşı çıxıb, ana dilinin tədris olunmasının faydalarını vurğuladı. "Əkinçi" islamda fanatizmi də qəbul etmədi, azad söz probleminin mövcudluğunu gündəmə gətirdi: "Məlumdur ki, heyvan haraya getsə gedər, hər tərəfə istəsə baxar, hər nə istəsə eləyər, haçan keyfi istəsə mələyər, amma insan nəinki öz istədiyini edə bilmir, hətta keyfi istədiyi kimi danışa da bilmir".

"Əkinçi" Bakıda çap olunsa da, ümumrusiya müsəlmanlarının qəzetinə çevrildi. Bu səbəbdəndir ki, çox keçmədən Qafqazda əks-səda doğuran "Əkinçi" Gürcüstan, Dağıstan, Özbəkistan və başqa yerlərdə də yayılmağa başladı. Qəzetin əks-sədası Londona da gedib çıxdı. Bakıya gələn fransız müxbiri H.Zərdabinin qəzet nəşr etdiyini öyrənib onunla görüşə gedəndə söylədi ki, siz həqiqətən qəhrəmansınız. Bizdə belə kasıb qəzetdə işləməyə razı olan bir nəfər də tapılmazdı. Görünür, öz xalqınızı ürəkdən sevirsiniz. Bakıda ilk qız məktəbinin yaradıcısı kimi tarixə düşən, Həsən bəy Zərdabinn həyat yoldaşı Hənifə xanım Məlikova-Zərdabi öz xatirələrində yazırdı: "Əkinçi" Rusiyadakı bütün müsəlmanları yerindən tərpətmişdi. O, bir elektrik cərəyanı kimi bütün müsəlman aləminin içərisindən keçmişdi".

1875-ci ildə "Əkinçi"nin 12, 1876-cı ildə 24, 1877-ci ildə isə 20 nömrəsinin işıq üzü görməsi, ümumilikdə isə 56 sayının nəşr edilməsi böyük mətbuat irsi kimi qiymətləndirilir. Bu, həm də Azərbaycan xalqının milli ideallarına, müstəqillik ruhuna və intellektual inkişafına verilən dəyərin göstəricisidir.

Müasir informasiya əsrində milli təhlükəsizlik elementi, ideoloji mübarizə meydanı və beynəlxalq rəqabətdə dövlətlərin intellektual üstünlüyünü təyin edən əsas vasitələrdən biridir. Çağdaş Azərbaycan mediasına nəzər saldıqda, onun ideya təməlində 150 il əvvəl "Əkinçi"nin cəsarətlə atdığı addımların ruhunu hiss etmək mümkündür. Həsən bəy Zərdabinin milli oyanış, maarifçilik və milli mənsubiyyət uğrunda başlatdığı mətbuat hərəkatı bu gün strateji informasiya siyasətinin bünövrəsidir.

Qloballaşan dünyada informasiya müharibələri getdikcə kəskinləşir və bu mübarizədə uğur qazanmaq üçün həm texnoloji imkanlardan, həm də yüksək peşəkarlıqdan istifadə etmək zəruridir. Azərbaycan dövləti isə bu sahədə strateji yanaşmalarla milli maraqlarını qorumaqla yanaşı, milli dövlətçilik ideyalarının və xalqın vahid informasiya məkanının təmin olunmasına xüsusi önəm verir.

Media müstəvisində həyata keçirilən islahatlar, jurnalistlərin hüquqlarının qorunması, dövlət-mətbuat əməkdaşlığının institusional əsasda qurulması bu tarixi mirasın müasir dövrdə də davam etdiyinin sübutudur. Dövlətin informasiya məkanına dair strateji yanaşması - dezinformasiyaya qarşı çevik reaksiya mexanizmləri ictimai etimadın gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər həm daxili sabitliyə, həm də beynəlxalq rəqabətə xidmət edir. Bununla yanaşı, media peşəkarlığının artırılması istiqamətində sistemli tədbirlər həyata keçirilir. Jurnalistlərin peşə bacarıqlarının genişlənməsi üçün mütəmadi təlim və seminarlar təşkil edilir, media etikası və peşəkarlıq standartları yüksək səviyyədə qorunur. Peşəkar media işçilərinin yetişdirilməsi, keyfiyyətli və obyektiv informasiya istehsalının təmin edilməsi dövlətin informasiya siyasətində prioritetdir.

**Nərgiz ÇƏRKƏZQIZI,**
**Azərbaycan Dillər Universiteti,**
**Beynəlxalq jurnalistka şöbəsinin müdiri.**